AZƏRBAYCAN RESPUBLİKASI

MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI
ELMİ-METODİKA ŞÖBƏSİ



**Şair, nasir, publisist Vaqif Bəhmənlinin**

**60 illik yubileyi münasibətilə**

# “Anadan olduğum andan sevirəm
# Dünyada hər nə var, candan sevirəm”

**(metodiki vəsait)**

**B A K I – 2015**

# B Ö L M Ə I

**O rüzgar içiynən mən də gedirəm,**

**Üzülmüş ürəyim yarımcan gedir.**

**Vaxtdı ta...Qış olan səmtə gedirəm,**

**Yarpaq da fırlanıb yarımcan gedir.**

Müasir Azərbaycan ədəbiyyatı nəsillərin və poetik üslubların əlvanlığı ilə seçilir. Son zamanlar folklora, aşıq poeziyasına, poetikada folklor üslublarına maraq güclənsə də, fəlsəfi-intelektual poeziya təmayülü poetik təkamüldə oz nüfuzunu qoruyub saxlamaqdadır. XX əsrdə bu təmayülün böyük R.Rzadan başlanan B.Vahabzadə, Ə.Kərim, F.Qoca, M.Araz, Ə.Salahzadə, R.Rövşən, Ç.Əlioğlu, A.Həsənli yaradıcılığından keçib gələn ənənə və forma-üslub təmayülünü istedad və vicdanla davam etdirən nümayəndələrindən biri Vaqif Bəhmənlidir.

Vaqif Bəhmənli poetik istedadının qədrini bilən, özünə güvənən, başlıcası isə sözün qeyrətini çəkməyi bacaran şairdir.

Sinəm üstə cərgələnən kəlməyə bax,
Mən ki, sözün güllər açan talasıyam.

Bəli, həqiqətən də V.Bəhmənli sinəsində göy göyərdən şairdir. Onun poeziyası söz əzabından doğulur. Vaqif Bəhmənli əzabla yazır, onun şeirlərində şair qəlbinin iztirabı poetikləşir, bu şeirlər oxucunu da iztirab aləminə çəkib aparır. V.Bəhmənlinin iztirabı poetik iztirabdır. Poetik iztirab gözəlliyi idrak üsuludur.

Sözümü dərd yudu, aləmdən bezdim,
Qopqoca içimdən təzə nə gəldi?
Varaqdan usandım, qələmdən bezdim,
Canım yazhayazdan cəzanə gəldi...

Tərlətdim, çərlətdim ilham atını,
Özüm də dad döydüm dözüm əlindən.
Nə yaxşı uşaqlar döydü qapımı
Məni qurtardılar sözün əlindən.

Bu şeirdə əslində söz üçün böyük məsuliyyət, sözə vurğunluq var. O, sadəcə ona görə belə yazır ki, bir şair kimi yeni qaydada düşünməyi bacarir, həyatdan aldığı həyəcanı dəqiq və obrazlı ifadə edir.

V.Bəhmənlinin poeziyası yüksək təlqin gücünə malikdir, çünki şair öz “mən”ini milyonların adından danışmaq vasitəsinə çevirə bilir. Bu poeziyanın yükü bər-bəzəksiz həqiqətdən tutulub. O poetik və estetik zövq verməkdən ziyadə düşündürür. Onun müəllifi olduqca təmənnasızdır, o həbsxanaya daha çox oxsayan bu fani dünyada dirsəyi boyda yer istəyir:

Çöllərdə yataram ar eyləmərəm,
Heç kimin yerini dar eyləmərəm.
Yolunu kəsmərəm dikdə, dolayda

Siz mənə yer verin dirsəyim boyda

Yer verin...yer verin...
Başımı ovcuma almağa çatsın,
Gizlin ağlamağa, dolmağa çatsın.
Elə bilirəm ki, şaham sarayda
Siz mənə yer verin dirsəyim boyda!

V.Bəhmənlinin şeirlərinin yazılmasına görə yox, səslənməsinə görə təhlil etmək doğru olar. Çünki Vaqifin şeirləri ritmik-assosiativ şeirlərdir, onlarda sakit və dərin həyacan mövcuddur. O, səsin rəng çalarlarına həmişə diqqət yetirir. V.Bəhmənli dərin söz duyumu olan, sözə sevgili kimi emosional həyəcanlı münasibət bəsləməyi, yaxşı mənada sözlə oynamağı, sözü təntitməyi bacaran şairdir.

Həqiqi poeziya incəsənətin bütün növlərinə xas həyəcan və ehtirasın sözlə rəsm edilməsidir. "Poeziyasız həyat cinayətdir" deyirdi A.Kostyubinski. Cünki "poeziya həyatın təbəssümü, onun nurlu baxışıdır" (V.Belinski).

V.Bəhmənli lirik şairdir. Bu fəlsəfi lirikadır. Onun lirikasında bir işıq, bir nur var. Bu nur şair "mən"ində, onun xalq həyatı ilə təmasda və vəhdətdə formalaşmış şəxsiyyətindən gəlir. Böyük tənqidçi V.Belinski yazıb: "Şairin yaradıcılıq fəaliiyətinin mənbəyi onun şəxsiyyətində ifadə olunan poetik ruhundadır, buna görə də onun əsərlərinin ruhunun və xarakterinin izahını birinci növbədə şairin şəxsiyyətində axtarmaq lazımdır". V.Bəhmənli şəxsiyyəti ilə poeziyası bir-birini tamamlayır. Təsadüfi deyil ki, o "Sevgimə axşam düşür"(2003) kitabının ilk şeirlərindən ibarət bir bölməsini "Hekayələr" adlandırıb. Belə şeirlərində şair lirik təfsilatlara yer verir, təfsilatdan fəlsəfi həqiqətə gəlir.

V.Bəhmənlinin "Sevgimə axşam düşür" kitabı Tanrıya xitabla başlayır, Tanrıya müraciətlə "kömək" şeiri ilə tamamlanır. Bu təsadüfi deyil. Onun bu kitaba toplanmış bir çox şeirləri Tanrı yolu gətirən, Tanrını da haqsızlıq önündə gücsüzlükdə ittiham edən narahat bir şairin qəlb fəryadlarıdır. Şairin "Beş-altı gün" şeiri bu baxımdan maraqlıdır. Şair Allaha yalvarır ki, beş-altı gün məni Allah eylə:

Haqq yolunda çıxıb canım,
Yanmayıbdı ömrüm hədər.
Sən uzaqsan bu dünyanı
Tanımazsan mənim qədər.

Beş-altı gün
nolar Tanrım,
bu dünyanı düzəltməsəm,
nurun mənə qənim olsun.
Yer üzündə Allah kəsən
Sonuncu baş mənim olsun!

Lirik qəhrəman günah dolu içini çarmıxa çəkmək, fağırların, yetimlərin göz yaşını silmək, ilanların acı zəhərini bala döndərmək, dəlilərə ağıl vermək, həmçinin

bu nizamı pozulmuş dünyanı düzəltmək üçün beş-altı gün Allah olmaq istəyir. Göründüyü kimi, şairin olduqca humanist bir qayəsi var.

V.Bəhmənli poeziyasının əsas fikir xəttini insan azadlığı müəyyən edir. Azad şüur, azad qəlb, azad vətən, azad torpaqdır onun lirik qəhrəmanının ali niyyəti. Azad olmaq üçün içindəki günahları çarmıxa çəkməyə hazırdır. Təki yerdə yer, göydə göy tapa bilsin:

Özümə bir cığır çətin taparam,
Görən yeridiyim yol kiminkidi?
Dilimi ağzımdan kimdi qoparan,
Ağzımı qapayan əl kiminkidi?

Girərdim bir qəbir tapsaydım əgər
Tutulub hər tərəf; bu darda ölüm?
Göyü Allah tutub, yeri peyğəmbər
Harda canım çıxsın, mən harda ölüm?

Torpağı yağmalanmış, milləti didərgin düşmüş şairin könül fəryadıdır bu misralar. Və burada qoyulan bu suallara cavab vermək çətindir, fəqət tarix onlara cavab verməlidir...

Vaqif Bəhmənli şeirlərində xeyirxah, nəcib, yüksək duyğuları ön plana çəkir, onu dərk etməyə, qəlbinin, ilhamının süzgəcindən keçirməyə çalışır. Onun yaradıcılığının ən müsbət cəhəti ondan ibarətdir ki, yaşadığı duyğuları, öz həyatını, öz daxili aləmini təbii boyalarla verməyi bacarır.

Bir sözlə V. Bəhmənli Azərbaycan poeziyasının tarixinə inamla daxil olub, inadla öz üslub fərdiyyətini qoruyub saxlayıb.

# B Ö L M Ə II

## HƏYAT VƏ YARADICILIĞI:

Şair, tərcüməçi Vaqif Bəhmənli 1955-ci il may ayının 23-də Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olub.Orta məktəbi doğulduğu kənddə 1972-ci ildə bitirəndən sonra 1973-cü ildə sənədlərini Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə verir və burada təhsilini davam etdirir.

Universiteti bitirdikdən sonra "Sovet kəndi" qəzetində şöbə müdiri (1978-88), "Kommunist" qəzetində şöbə müdiri (1988-1991), "Vətən" cəmiyyətinin "Odlar yurdu" qəzetində baş redaktor (1991-1992), "Həyat" qəzetində baş redaktor (1992-1994, "Yazıçı" nəşriyyatında redaktor (1994), Gənclər və İdman Nazirliyində şöbə müdiri (1995-1997), "Ədalət" qəzetinin baş redaktorunun birinci müavini (1997-98), "XXI-gənclik dərgisi"ndə redaktor (1998-2000), "XXI – Yeni Nəşrlər evi"nin baş redaktoru (2000), "Mars" dərgisinin baş redaktorunun müavini (2003), Beynəlxalq Avrasiya Mətbuat Fondunun departament rəhbəri (2003), "Humanitar" qəzetinin redaktoru (2004), Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri (2006-dan – indiyə qədər) vəzifələrində çalışıb.

Vaqif Bəhmənli 1986-cı ildə Respublika Komsomol mükafatına, 1989-cu ildə Azərbaycan Ali Sovetinin Fəxri Fərmanına, 2004-də İsa İsmayılzadə adına "İlin ən yaxşı şeiri" mükafatına, Türk dünyası poeziyasına xidmətlərinə görə Şahmar Əkbərzadə adına mükafata (2003), Azərbaycan Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adına, "Yaddaş" Milli mükafatına, Rəsul Rza adına beynəlxalq mükafata, Əli Kərim adına ən yaxşı poeziya mükafatına layiq görülmüşdür. Onun şeir və məqalələrdən ibarət 35-dən çox kitabı işıq üzü görüb, coxlu sayda beynəlxalq poeziya və ədəbiyyat festivallarında iştirak edib.

Vaqif Bəhmənli Azərbaycan Yazarlar Birliyi, Azərbaycan Jurnalistlər Birliyi, Avrasiya Yazarlar Birliyinin üzvüdür. Həmçinin, Moskvada, Ankarada, İstanbulda keçirilən poeziya festivallarının mükafatlarına layiq görülüb, əsərləri rus, özbək, ukrayna, türk, alman, ingilis, türkmən, gürcü dillərinə çevrilib. Bir çox xarici dövlətlərdə Almaniya, Rusiya, Misir, Ukrayna, İran, Belarus, Latviya, İspaniya, Tacikistan, Qırğızıstan, Türkmənistan, Qazaxstan, Gürcüstan və digər bu kimi ölkələrdə rəsmi və yaradıcılıq səfərlərində olub.

Vaqif Bəhmənli "Azərbaycan" fotoalbomunun, "Azərbaycan Dövlət Kitabı"nın mətn müəlliflərindən biridir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin mədəniyyətin inkişafına yönəlik fəaliyyətindən bəhs edən "Vətənin İlhamı – ömürdən reportaj", ulu öndər Heydər Əliyevin adını əbədiləşdirən, ünvanları canlandıran "Heydər Əliyev adına" əsərlərində Vaqif Bəhmənli bu ciddi, həm də çox araşdırılan mövzulara tamamilə yeni nəzər nöqtəsindən baxmışdır. Ədəbiyyat, sənət və həyat haqqında yüzlərlə məqaləsi dərc edilib.

Vaqif Bəhmənli son 30 ildə Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişafinda xidmətlər göstərən, geniş oxucu auditoriyası tərəfindən sevilən şairlərdəndir. İstedadlı qələm sahibinin 70-ci illərdən indiyə qədər 10-dan çox şeirlər, poemalar, nəsr və bədii tərcümədən ibarət kitabı çap edilmiş, əsərləri dünyanın müxtəlif dillərinə tərcümə olunmuşdur. Şair publisistin qələmindən çıxan yüzlərlə məqalə, müsahibə, əbədi düşüncə, satira Azərbaycanın çagdaş pulisistikasının qiymətli nümunələridir. Vaqif Bəhmənli müntəzəm olaraq dövrü mətbuatda böyük rezonans doğuran publisistik əsərləri, şeir silsilələri ilə çıxış edir.

Bəli, may ayının 23-ü şair, tərcüməçi, publisist Vaqif Bəhmənlinin 60 illik yubileyidir. Əlinə qələm aldığı gündən Vətən gözəlliklərinə nəğmə qoşan, onun dərdini, ağrı-acılarını ürəyindən keçirərək misra-misra şeirlərində əks etdirən Vaqif Bəhmənlinin xoşbəxtliyi onda oldu ki, şair kimi yerində saymadı, şeirdən-şeirə, misradan misraya, kitabdan kitaba artdı, ancaq heç vaxt özünü dartmadı. Həmişə ədəb ərkan, əxlaq, mərifət gözlədi, təvəzökarlıqdan nə özü boyundan yuxarı tullandı, nə şeiri... Bir sözlə bu doğum günündə şairi yad etməyin ən yaxşı yolu onun yaradıcılığına bir daha müraciət etməkdir.

Sevimli şairimiz Vaqif Bəhmənlinin 60 illik yubileyi münasibətilə bu il respublikamızın bir çox təhsil ocaqlarında, məktəblərdə, lisey və gimnaziyalarda, kitabxanalarda və s. yerlərdə tədbirlər planı hazırlanmışdır. Belə bir tədbirlər planı F. Köçərli adına Respublika Uşaq Kitabxanasında da hazırlanmışdır. Tədbirlər planına bir çox oxucu kütləsinin sorğularını ödəmək məqsədilə V.Bəhmənlinin əsərlərindən, onun həyat və yaradıcılığına dair ədəbiyyatlardan, dövrü mətbuatda nəşr olunan materialların kartotekasından və bir də şairin həyat albomundan hazırlanmış fotolardan sərgi təşkil olunmalıdır. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn, "Söz ustadı", "İşıqlı poeziya", "Dünya ayaq üstədir", "Heyrətləndirən şair", "Vaqif Bəhmənli-60", "Gözəlliyi kamilliyə səsləyən poeziya", və s. İndi isə "Vaqif Bəhmənli və poeziya" adlı sərginin nümunəsini veririk.

1. **Başlıq.**

   **"Vaqif Bəhmənli və poeziya".**

2. **Kitablarının nümayışı.**
3. **Görkəmli insanların Vaqif Bəhmənli haqqında söylədikləri sitatlar.**
4. **Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.**
5. **Şeir parçası.**

   **Axır ürəyimdən bir arzu, bir hiss,**
   **Qarışıq məhəbbət üfüqlərinə.**
   **Bürüyək dünyanı görüşlərə biz,**
   **Dünyanı çevirək görüş yerinə.**

**Sitatlar:**

1. **“Bar ver, ümid ağacım” kitabının məhsulları, göründüyü kimi safdır, təmizdir, şirəli və rayihəlidir. Bunlar isə daha böyük ümid doğurur, onun müəllifinin istedadına rəğbət hissi oyadır.**

**Tofiq Mahmud**
**Şair, nasir,tərcüməçi**

2. **Vaqif Bəhmənli Azərbaycan poeziyasının tarixinə inamla daxil olub, inadla öz üslub fəaliyyətini qoruyub saxlayır.**

**Nizaməddin Şəmsizadə**
**Filologiya elmləri doktoru, professor**

3. **Vaqif Bəhmənli poeziyasının özəyi, cövhəri, aparıcı axını gözəl və dəyərlidir.**

**Məstan Əliyev**
**Şair, publisist**

4. **Vaqif Bəhmənlinin xoşbəxtliyi onda oldu ki, şair kimi yerində saymadı, şeirdən şeirə, misradan misraya, kitabdan kitaba artdı, ancaq heç vaxt özünü dartmadı. Həmişə ədəb, ərkan, əxlaq, mərifət gözlədi, təvazökarlıqdan nə özü boyundan yuxarı tullandı, nə şeiri...**

**Ağacəfər Həsənli**
**Şair, publisist**

5. **Vaqif Bəhmənli üzündən oxunan şairdir. Üzündən oxunur onun şairliyi. Hansı şeirini axtarsan, üzündə taparsan.**

**Qulu Ağsəs**
**Ulduz jurnalının baş redaktoru**

6. **Şeir Vaqif Bəhmənlinin canına, beyninə, qanına hopmuş bir hissiyat, varlıqdır. Vaqif onsuz, bir an belə yaşaya bilmir. O, həmişə axtarır, düşünür, şeir vasitəsilə yeni fikir söyləmək istəyir.**

**Əyyub Məmmədov**
**Tibb elmləri üzrə fəlsəfə doktoru.**
**Respublikanın əməkdar həkimi**

7. **Vaqif Bəhmənli poeziyada çox möhtəşəm bir qələm sahibi kimi tanınır. Böyük ədəbiyyat ərazimizin hansı tərəfindən baxsan, o, boy-buxunu ilə görünən, seçilən və barmaqla sayılası üç-dörd şairlərimizdən biridir.**

**Seyran Səxavət**
**Şair, nasir, tərcüməçi**

## KİTABLARININ NÜMAYİŞİ:


























**“Vaqif Bəhmənli və poeziya” adlı Foto sərgi:**


















**Görkəmli şair Vaqif Bəhmənlinin yanrı mövzu etibarı ilə çoxçalarlı və rəngarəngdir. Bu yanrı ilə oxucusunu bənzərsiz və şirin dili ilə danışdıran sənətkarın şairanə bir üslubu var. Həmişə böyüklər üçün yazıb yaradan Vaqif Bəhmənli bu üslubundan balaca uşaqlar üçün də bir pay ayırıb. O, kiçik yaşlı uşaqları da yaddan çıxarmayıb. Şairin uşaqlar üçün yazdığı "Qızıl qala" kitabında bir çox şerlər var ki, bu şeirlər uşaq qəlbinə yol tapıb, onların yaddaslarına həkk olub.**

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasında yubilyar şair Vaqif Bəhmənlinin 60 illik yubileyi münasibətilə keçirilən tədbirlərdən biri də səhərcikdir. Səhərciyi keçirmək üçün kitabxanaçı məktəb yaşlı oxucuları kitabxanaya dəvət edir. Kitabxana ilə tanışlıqdan sonra oxucular kitabxananın "Nağıl otağı"nda keçirilən tədbirdə iştirak edirlər. Belə səhərciklərin keçirilməsində məqsəd kiçik yaşlı oxucuları kitabxanaya cəlb etmək, onlarda mütaliyəyə, kitab oxumağa maraq yaratmaqdır. "Nağıl otağı"nda şair Vaqif Bəhmənlinin bir neçə şeirini kitabxanaçı kiçik yaşlı uşaqlara oxuyur. Bu şeirlərdən bir neçəsini nümunə üçün veririk:**



**Kim nədən qorxur**

Pişik, nədən qorxursan?
Pişik dedi: pələngdən.
Çiçək, nədən qorxursan?
Çiçək dedi: küləkdən.



Külək, nədən qorxursan:
Yolum kəsən qayadan.
Arı, nədən qorxursan?
Bal axtaran ayıdan.

Gecə, nədən qorxursan?
Günəşin gülməyindən.
Yarpaq, nədən qorxursan?
Payızın gəlməyindən.



Quzu, nədən qorxursan?
Yırtıcı canavardan.
Kasıb, nədən qorxursan?
Soyuq şaxtadan, qardan.



Ağac, nədən qorxursan
Dəcəl-xata uşaqdan.
Meyvəmi kal-kal yolub,
Yerə tökür bayaqdan!

**Baba**

Yuxudan durur babam
Xoruzun ilk banından.
Ot çalıb, sərir babam
İşsiz durmur bircə an.

Çölə-çəmənə kimi
Mən babamla gedirəm.
Axşam düşənə kimi
Ona kömək edirəm.

Şənlənir o bəs nədən
Sevinir güləndə mən?
Gəlir öpür üzümdən
Dərsdən "5" alanda mən.

**Yanıltmac**

Cüt göbələk
Üst göbələk
Tək göbələk...

**Qaz qarmon aldı**
Qaz köhnə bir qarmon aldı
Sinəsinə basıb çaldı;
Qarmonda qaz ağıldadı
Qarmon qaz tək vağıldadı...

**Gecə**

Qara saçlı, ulduz gözlü
Ay üzlü oğlandı gecə,
Nənəm qəfil
Kibrit çəkdi,
Oda düşüb yandı gecə
Xoruz çıxdı doqqaz üstə
Yuxudan oyandı gecə.

Vaqif Bəhmənlinin yubileyi ilə bağlı kecirilən tədbirlərdən biri də kitab müzakirəsidir. Kitab müzakirəsində Vaqif Bəhmənlinin bir çox kitablarının müzakirəsini keçirmək olar. Kitab müzakirəsinə başlamamışdan əvvəl oxucular və tədbirə gələn qonaqlar kitabla yaxından tanış olurlar. Tədbirə kitabxanaçı bir çox tanınmış ziyalıları, elm xadimlərini, şair və yazıçıları və s. dəvət edə bilər. “Avrasiya Press” nəşriyyatı tərəfindən 2006-cı ildə nəşr olunan Poeziya adlı üç cildlik kitaba çağdaş Azərbaycan ədəbiyyatının tanınmiş nümayəndəsi, bənzərsiz bədii obrazlar və qeyri-adi ahəngdar duyğular şairi Vaqif Bəhnənlinin seçilmiş şeirləri və poemaları daxil edilmişdir.Üç cildliyin hər bir cildində ötən əsrin 1970-ci ilindən yeni yüzilliyin 2005-ci ilinə qədər olan 35 illik bir dövrdə şairin yaradıcılıq addımlarını, bədii təfəkkürdəki estetik mərhələlərini izləmək mümkündür. Sevgi, nifrət, mərhəmət və qəzəb, yaxşılıq və pislik, zülm və ədalət və s. anlayışları təsvir edən dolğun poetik parçalar son olaraq hər bir kəsi ali insanlıq məqamına yüksəlməyə səsləyir.

Tədbirdə iştirak edən şair Vaqif Bəhmənli kitabda ön söz əvəzi yazan Qulu Ağsəsə öz təşəkkürünü və minnətdarlığını bildirir. Və bu kitaba yazılan ön söz əvəzindən bir çox cümlələri oxucuların nəzər diqqətinə çatdırmaq istəyir.

Vaqif Bəhmənli Üzündən Oxunan şairdir. Üzündən oxunur onun şairliyi.Hansı şeirini axtarsan, üzündə taparsan.

Vaqif Bəhmənli yol adamıdır-hardan gəldiyini də bilir, hara getdiyini də.

Vaqif Bəhmənli çöl adamıdır, doqquz mərtəbəli evin balkonunda bitməyinə baxmayın!

Vaqif Bəhmənli yük adamıdır-yoxsa dərdi, azarı olanlar məhz onu qırağa çəkib ürəklərini boşaltmazdılar ki!

Qələm adamıdır, hal adamıdır, iç adamıdır, Allah adamıdır.

Yuxarıda qeyd etdiyimiz kimi bu dəyərli sozlər kitaba ön söz əvəzi yazan Qulu Ağsəsə aiddir.

Tədbirin sonunda oxucular Vaqif Bəhmənlinin ifasında “Tək” şeirindən bir parçaya qulaq asır, şəkil çəkdirir və avtoqraf almagı da unutmurlar.

**Əkizə də Tanrı tikir damı tək,**
**Hər adamın dad alıbdı tamı-tək.**

**Hamı təkdi bu dünyada, hamı tək!**
**Mən də təkəm, mən də təkəm, hamı tək...**

**Hər kimsənin payı ayrı camı tək,**
**Südü ayrı, damarının qanı tək...**
**Oğrun-oğrun daşıyıram canı tək**
**Başlar kəsib, suçlar yığan canı tək!**

Vaqif Bəhmənli yaradıcılığına bir daha müraciət etmək, onun yaradıcılığını geniş oxucu kütləsinə sevdirmək üçün F.Köçərli adına Respublika Uşaq kitabxanasında keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecə və ya poeziya gecəsidir. Belə tədbirlər oxucuların ən çox maraq göstərdiyi və sevdiyi tədbirlərdən biridir. Tədbir müxtəlif başlıqlar altında keçirilə bilər. **"Sinəsində söz göyərdən şair", "Sözün adiliyi və aliliyi", "Yeriyərkən dediyim şeirlər", "Bar ver, ümid ağacım", "Dünya ayaq üstədir", Poeziya vurğunu Vaqif Bəhmənli", "Vaqif Bəhmənli və poeziya", "Vaqif Bəhmənli-60", "Anadan olduğum andan sevirəm, Dünyada hər nə var, candan sevirəm" və s.** kimi başlıqlardan istifadə etmək olar.

**"Vaqif Bəhmənli və poeziya"** adlı ədəbi-bədii gecəyə kitabxanaçı bir ay qabaqcadan hazırlaşır. Tədbirə bir çox şair və yazıçılarla yanaşı ədəbiyyat müəllimlərini, kitabxanaçıları, tələbə və şagirdləri və həmçinin yubilyar şair Vaqif Bəhmənli dəvət oluna bilər. Tədbirin ədəbi hissəsi çıxış və məruzələrlə başlanır. Bədii hissədə isə Vaqif Bəhmənlinin bir çox şeirlərindən parçalar və poemalarından səhnəciklər göstərilə bilər. Səhnə gül dəstələri ilə bəzədilir. Şairin portreti səhnənin divarından asılır.

**Sitat:**

**"Əgər mənim çoxlu, lap çoxlu pulum olsa, o pulun hamısını, sonuncu qəpiyinə qədər ortaya qoyub, Qarabağın işğal olunmuş torpaqlarını qan tökülmədən alaram..."**

Aparıcılar səhnəyə daxil olur:

**I Aparıcı:**

Hər bir insan sənət sahibi həmişə axtarışda olmalı, işinə yaradıcı yanaşmalıdır. Ancaq bunu hamı edə bilmir. Vaqif Bəhmənli isə daima axtarışda olmaqla öz sənətində yenilik axtarır və tapır. O, bütün oxuculara bildirdi ki, insan hər şey edə bilər və bunu etdi. O, Azərbaycan ədəbiyyatına yenilik gətirdi.

**Hamı kimi mən də**
**istəyirəm ki, özümü**
**yenidən quram.**
**Amma neyləyirəm**
**ürəyim gəlmir ki,**
**köhnə şeirlərimi**

**cıram,**
**yandıram!..**

Qələmə aldığı şeirlər onun canına, beyninə, hüceyrələrinə hopmuş bir hissiyatdır, varlıqdır. Vaqif Bəhmənli şeirsiz bir an belə yaşaya bilmir. O, həmişə axtarır, düşünür, şeir vasitəsilə yeni fikir söyləmək istəyir. O, nə yazırsa yazsın insanı yüksəkliyə qaldırır. İnsan ləyaqətini hər şeydən yüksək tutur və onu sağlamlığa çağırır. O göstərir ki, insan yenilməz və əzilməz bir qüvvədir.

**Yazmamaq olmaz, olmaz...**
**Yazan yaranır az-az!**
**Min il keçər...**
**Duyularsan!**
**Mənə inan!**
**...Və yaz!**

Bütün bunları yaxşı bilən Vaqif Bəhmənli yaddaqalan, zəhmətkeş, güclü və agıllı insan tapır və "İlin beşinci fəsli Kamran" sənədli romanını yazır. Adından da göründüyü kimi kitab respublikamızın tanınmış ziyalılarından olan Kamran Hüseynovun həyat və fəaliyyətinə həsr edilib.

Bu kitabda ilk cümlədən başlamış sona qədər hər şey yenidir. Əslində Kamran müəllim lap gənc yaşlarından ömrünün sonuna qədər qurub-yaradan insan olub.

Kitabdan oxuyuruq: "Kamran müəllim deyir: "Taleyimdən razıyam. Onu özüm yaratdım. Oxutmadılar-oxudum, Evləndirmədilər-evləndim. Böyütmədilər-böyüdüm. Dayağa söykənmədim, dayaq oldum. Öyrətmədilər-öyrəndim".

**Bəzən unuduram hər şeyi**
**Hətta ona qədər ki,**
**Kiməm, hardan gəlirəm,**
**gedirəm hara...**
**Təkcə üzümə çırpılan**
**küləkdən bilirəm ki, varam!**

**II Aparıcı:** Həyatın min bir adı var. O adlardan biri, bəlkə də birincisi, heç şübhəsiz ki, heyrətdir, Doğulmaq heyrəti, ölmək heyrəti, sevmək heyrəti, ayrılıqlar heyrəti, qovuşmalar heyrəti.

Vaqif Bəhmənli bu sözləri qələmə alarkən yüz ölçüb, bir biçir. Görəsən bu sözlər oxucuları qane edəcəkmi, onlara yeni fikir aşılıyacaqmı?

Bir sözlə bu gün hamı yazır. Şeir yazan, roman yazan, xatirə yazan...Lakin Vaqif Bəhmənlinin yaratdıqlarında hər şey yenidir. Onun yeni yazdığı iki kitab "İlin beşinci fəsli Kamran"

və "Hamı" kitablarında yeni sözlər, yeni fikirlər, poliqrafik nəşr və tərtibat yenidir.

**"Yaxşı ki, hamıdan uca Allah var!**
**Yaxşı ki, hamıdan uca hamı var...**
**Allah izin verməsəydi bu kitab necə yaranardı?**
**Lap yaransa belə, hamı olmasaydı,**
**Bu kitab kimə gərək idi?"**

Allahın varlığı, Allahın duası və ona inam Vaqif Bəhmənli dünyasına hopub. Ona görə o, "yaxşı ki, hamıdan uca Allah var!" deyir.

XX yüzilliyin ikinci yarısında meydana qoyulan milli poeziyanın öncüllərindən olan şair-publisist Vaqif Bəhmənlinin Poeziya adlı kitabının üççildliyi 2006-ci ildə işıq üzü gördü. Üç cildliyin hər bir cildində ötən əsrin 1970-ci ilindən yeni yüzilliyin 2005-ci ilinə qədər olan 35 illik bir dövrdə şairin yaradıcılıq addımlarını, bədii təfəkkürdəki estetik mərhələlərini izləmək mümkün oldu. Sevgi və nifrət, mərhəmət və qəzəb, yaxşılıq və pislik, zülm və ədalət və s. anlayışları təsvir edən dolğun poetik parçalar son olaraq hər bir oxucunu ali insanlıq məqamına yüksəlməyə səsləyir. Poeziya adlı kitabın I cildində Vaqif Bəhmənlinin ilk gənclik illərində qələmə aldığı "Çənlibelli Qoç Koroğlu" poeması, məşhur "Qırxıncı otaq" və s. əsərləri də daxil edilmişdir.

Kitabın ikinci cildində isə ədibin şeirləri, poetik silsilələri və poemaları daxil edilmişdir. Bu cilddə yer alan "Söyüddən asılan beşik" adlı yazını sizlərə təqdim etmək istərdik.

**I Aparıcı:** Mən uşaq olanda kəndimizin həndəvəri qalın bağlar idi. Orda mərdanə çınar ağacları göynən əlləşirdi. Əzablı palıd düyünlərində əsrlərin sirri yaşayırdı.

O sıx, dözümlü ağacların sırası get-gedə seyrəldi. Palıdlar, vələslər kimi azman tut ağacları da ocaqlarda çırthaçırt yandı.

Qapımızda iri, qollu-budaqlı tut ağacı qalmışdı.

Bir yay gecəsi göy guruldayıb aləm bir-birinə qarışanda və ildırım o tut ağacını yenicə kəsilmiş heyvan kimi iki şaqqa eləyəndə rəhmətlik Dilbər nənəm bizə ürək-dirək verib söylədi ki, şükür, o şah tut qapıda olub, yoxsa ildırım evimizin üstünə düşərdi və bizdə hamımız yanıb kül olardıq.

Və bu yaxın yayların birində yenicə dünyaya göz açan oğlumu götürüb kəndə apardım ki, anam da görsün. Arvad şadlığından quş kimi qanad açdı. Bir anda iri xaraldan nəvəsinə yüyrük düzəltdi. Yazıq anam həyatin dörd tərəfinə göz dolandırdı, bir davamlı ağac tapa bilməyəndə yüyrüyü arxın qırağındakı söyüddən asdı. Oğlum şirin-şirin yatdı...və mən ayıldım. Ayıldım ki, dadi-bidad, obamızda bir möhkəm ağac qalmayıb.

| | |
|---|---|
| **I Aparıcı:** | Bəli, Vaqif Bəhmənli altmışı adladı və onun sözünü də bir kimsə deyəmmir. Əvvəl-əvvəl onu çoxları dərk edənmədi, bəziləri onun misralarından "seçib-sonalayıb" ənənəvi şeirə, şablon şeirə qəvi düşmən kimi təqdim etsələr də, faydası olmadı. |

**I Oxucu:**

**Bu günə qaldıq ki, çox şeyi dandıq,**
**Artdı qorxa-qorxa gəzən pişiklər.**
**Palıd baltalandı, çinar şaxlandı**
**Söyüddən asıldı bizim beşiklər.**

**Öküz tək burulub torpağın qolu,**
**Nə deyir bu dərdə görən göyümüz?**
**Bu da bu günümüz, dədəmin oğlu,**
**Söyüdə calandı bərk sümüyümüz.**

**Tay sorma, yox oldu ərənlər hara,**
**Nədəndi sel alıb kipriyi, qaşı.**
**Su tökür püskürən qışqırtılara**
**Ağlağan söyüddən axan göz yaşı.**

**Yumşaq şivlərə baz, bənzər xaltaya,**
**Nə təbdə yekələr bu qaqa gədə?**
**Düşmən boğazını kəsən baltaya**
**Söyüddən sap olmaz, olmaz ay dədə.**

**Bu söyüd balası kimə ağ olur?**
**Mumlayar köməksiz, ağrısız kimi.**
**Hər mehə qatlanan bir yaltaq olar,**
**Ötənə naz satar ya da qız kimi.**

**Bəs edər verməyə gizli sirrini**
**Bir ötkəm qışqırıq, bir yağlı qapaz.**
**Əyilən tağını Xudafərinin**
**Bu fağır uşağın çiyni saxlamaz.**

**II Oxucu:**

**Allah tale yazsa, işdi yarısam**
**Olar buyruq qulu, nökər bu uşaq.**
**Vətən torpağına yağı yerisə**
**Oturub göz yaşı tökər bu uşaq.**

**Budurmu şəstinən qoruduğum ad?**

**Gördüm bu dünyanın belə günün də.**
**Məni işıqlığa gətirən arvad**
**Balamı öldürür gözüm önündə.**

**Söyüd agacından asır balamı,**
**Baxıram taleyin acı dərsinə.**
**Pörtmüş yanağıma göz yaşı damır,**
**Əzabdan, kədərdən göynəyir sinəm.**

**Belə ocaq olar, belə yurd olar?**
**Yəqin ki, yəqin ki, çatar dözümüm,**
**Allahın altında bir şah tut ola**
**Canlı qanadından asan özümü!**

**I Aparıcı:** Bir sözlə Vaqif Bəhmənlinin şairliyi onun insanlığının təcəssümüdür. Onun insanlığı onun şairliyindən irəli gəlir. Bu, sadəcə bənzətmə deyil, onun xeyirxah təbiəti, mülayimliyi, mənəvi dəyərlərə sadiqliyi, qürurlu mədəniyyəti şair-insan, insan-şair obrazını yaradır. Və bu obraz onun demək olar ki, bütün şeirlərində sənin əlindən tutur, sənə həmdərd olur, səni düşüncələrə qərq edir, sənin halına yanır, səndən umur, səninlə birgə kədərlənir, sevinir, əzablarına qatlaşır...və nəhayət, səndən vətəndaşlıq, qeyrət, düzgünlük, ədalət və sədaqət umur.

Vaqif Bəhmənlinin zamanın gərdişinə özünəməxsus sağlam münasibəti var. Bu bacarıq və qabiliyyət onun poetik zövqünü və təfəkkürünü heç vaxt dəyişməyib. O, şair kimi sabit, vətəndaş kimi dönməz, şəxsiyyət kimi mübariz olaraq qalmaqdadır. Onun insan və onu əhatə edən mühitə, həyat və həyatın doğurduğu problemlərə klassik, lakin orijinal münasibəti var: insan həyatdır, onu sevmək lazımdır, lakin həyat insan deyil, onunla mübarizə gərəkdir...

Vaqif Bəhmənli hər zaman insan qəlbinin səmimiyyətinə inanıb, o, insanı, onun bütün qəlbini təsirləndirə bilən nə varsa, hamısını duya bilir, onu naqislikdən, paxıllıqdan pis əməllərdən təmizləməyə çağırır. Şair keçmişi, bu günü və gələcəyi düzgün qiymətləndirir, keçmişin ağrı-acılarının, bu günün naqisliklərinin və gələcəyin işıqlı görüntülərinin çəkisini və qiymətini verməkdə çətinlik çəkmir.

**Oxucular səhnəyə daxil olur Vaqif Bəhmənlinin "Yüz il sonra" şeirini söyləyirlər.**

**Yüz il sonra**

**Yoxsa ey içimi yandıran adam,**
**Ömrünü qiymətli bəxşiş bilirsən?**

**Pul qoyub özünü donduran adam,**
**Canının qədrini yaxşı bilirsən!**

**Qorxdun tükənəsən,ömür-gün gedə,**
**Vaxtın acığına bəlkə yatırsan?**
**Yüz oyundan çıxıb demək indi də**
**Allahın işinə əl uzadırsan??**

**Mənəmlik dərsini yaxşı keçmisən,**
**Bu sevda ha yandan başına gəlib?**
**Ömür nəşəli mey,bir yel içmisən**
**Deyəsən yamanca xoşuna gəlib!….**

**Ayrıdı hər kəsin dünyada malı,**
**Pay düşüb hərəyə ilk bölgü günü.**
**Sən şüşə altında rahat yatmalı,**
**Mənmi çəkməliyəm sənin yükünü?**

**O yüz il sonranın başqadı rəngi,**
**Əməlli fikirləş,nə qədər sağsan.**
**Qanında yaşayan qara xərçəngi**
**Yüz il sonrayamı aparacaqsan?**

**Kimin gərəyidir nursuz bəbəklər,**
**Saçında namərdlik dəni.**
**Dəqiqmi bilirsən xoflu ürəklə**
**Bağrında basacaq gələcək səni?**

**Gələcək,təzədən qalxmaq anında**
**Sənə bağışlamaz bu nankorluğu**
**Hara aparırsan soyuq anında**
**Kini,ədavəti,rüşvətxorluğu?**

**Sular,bilirsənmi nə gözəl axır,**
**Qəşəngdi bu günün günəşi,ayı.**
**Yüz il sonraların dəcəl uşağı,**
**Səni fışdırığa basmamış ayıl!**

**Görünür alladıb nağıllar səni,**
**Gün gələr zəhmətin görərsən gidi.**
**Şüşədə yaşayan div canı kimi**
**Ruhunu daşlara çalar bir igid!**

**Ən ağır yuxudu qəflət yuxusu,**
**Ondansa yaxşıdı rahat öləsən.**
**İndi yatırsan ki,  atom qorxusun**
**Kitabdan oxuyub sonra biləsən?**

**Yüz il ötüb keçər,vədə çağında**
**Hərə bir cilddə dönər,qayıdar**
**Mən də daş olaram yol qırağında**
**Adamlar dalınca götürüb atar!!…**

II Aparıcı: **Vaqif Bəhmənlinin poeziyası yaddaş üçün deyil, onun şeirləri havadır. Hava yadda qalmır axır adamın ruhuna, varlığına hopur. Yaxşı ki, ədəbiyyatda Vaqif Bəhmənli kimi şairlərimiz var. Sonda Vaqif Bəhmənliyə Allahdan can sağlığı, uzun ömür və yaradıcılıq uğurları arzulayırıq.**

**S O N:**

**Ə D Ə B İ Y Y A T   S İ Y A H I S I :**

**www. Google.az. wikipediya**


1. **Bəhmənli. V.** Seçilmiş poetik əsərləri : 3 cilddə. Poeziya I : Seçilmiş şeirlər və poemalar.-Bakı. : Avrasiya Press, 2006. - 416 s.
2. **Bəhmənli.V.** Seçilmiş poetik əsərləri : 3 cilddə.**II cild** : Poeziya 2 : Seçilmiş şeirlər və poemalar. – Bakı. : Avrasiya Press, 2006. - 424 s.
3. **Bəhmənli. V.** Seçilmiş poetik əsərləri : 3 cilddə. **III cild** : Poeziya 3. Seçilmiş şeirlər və poemalar. – Bakı. : Avrasiya Press, 2006. - 432 s.
4. **Bəhmənli. V.** Bahar-payız arası : Şeirlər / V. Bəhmənli ; red. Ç. Əlioğlu. - Bakı : Gənclik, 1979. - 40 s.
5. **Bəhmənli. V.** Bar ver ümid ağacım.- Bakı.: Gənclik, 1983. - 56 s.
6. **Bəhmənli. V.** Dünya ayaq üstədir.- Bakı. : Yazıçı, 1981. - 68 s.
7. **Bəhmənli. V.** İlin beşinci fəsli : Kamran. Sənədli roman.- Bakı. : Renessans, 2013. - 548 s.
8. **Bəhmənli. V.** Yaz naxışları .- Bakı. : Oğuz eli, 1993. - 22 s.
9. **Bəhmənli. V.** Leyli hasarı : - Bakı. : Beşik, 2009.
10. **Bəhmənli. V.** Maqomayev planeti. – Bakı. : Elm və Təhsil, 2012. - 120 s.
11. **Bəhmənli. V.** Ömürdən uzun gecə : Sənədli povest.- Bakı. : Azərnəşr, 1988. - 86 s.
12. **Bəhmənli. V.** Sınıq güzgü. – Bakı. : Avrasiya press, 2005. - 632 s.
13. **Bəhmənli. V.** Vətənin İlhamı : - Bakı. : "Çağdaş As", 2011. - 312 s.

**Redaktor:** **Şəhla Qəmbərova-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**Tərtibçi:** **Könül Səmədzadə-F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi metodika şöbəsinin baş kitabxanaçısı**

**Korrektor:** **Ruhiyyə Məmmədli-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi-metodika şöbəsinin müdiri**